*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2025, № 2* *ISSN: 2663-4406*
*Səhifə: 163-167* *E-ISSN: 2709-2699*
*https://doi.org/10.59849/2663-4406.2025.2.163*

# XX əsr poeziyasında heca vəznli şeirin tədqiqi ənənə və novatorluq müstəvisində

**Məlahət Əhmədova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
E-mail: malahatahmadovav@gmail.com
ORCID: 0009-0000-6273-8279

**Annotasiya.** Təqdim olunan məqalədə heca vəzninin XX əsr poeziyamızdakı mövqeyinə filoloji fikrin münasibəti araşdırılır. Heca vəzninin daimi bir xətt kimi poeziyamızda özünü qoruması prinsiplərinin tədqiqatlarda əksini tapması məsələsinə diqqət yetirilir. XX əsr və onun məntiqi davamı kimi çağdaş poeziyada heca vəzninin dinamikasının əsas xüsusiyyətləri barədə elmi-nəzəri qənaətlər təhlil olunur. Ənənə və novatorluq müstəvisində filoloji fikrin təcrübəsi nəzərdən keçirilir.
**Açar sözlər:** heca vəzni, ənənə və novatorluq, struktur, forma, şəkil

**Məqalə tarixçəsi:** göndərilib – 10.01.2025; qəbul edilib – 24.01.2025

# The study of syllabic poem in the poetry of the 20th century in terms of tradition and innovation

**Melahet Ahmedova**
Azerbaijan State Pedagogical University
E-mail: malahatahmadovav@gmail.com
ORCID: 0009-0000-6273-8279

**Abstract.** This article investigates the position of the syllabic meter (heca) within Azerbaijani poetry of the twentieth century as reflected in philological discourse. Particular attention is devoted to the ways in which scholarly research has addressed the principles ensuring the continuity of the syllabic meter as a persistent structural element in national poetic practice. The study further analyzes theoretical insights into the distinctive features of the syllabic meter’s dynamics in twentieth-century poetry and its logical continuation in contemporary verse. Finally, the discussion situates philological perspectives within the broader framework of tradition and innovation.
**Keywords:** syllabic meter, tradition and innovation, structure, form, shape

**Article history:** received – 10.01.2025; accepted – 24.01.2025

## Giriş / *Introduction*

Heca vəznli Azərbaycan ədəbiyyatı zəngindir. XX əsr və onun davamı kimi XXI əsrdə bu vəzndə yazmaq ənənəsi davam etmiş, yazılı lirikamızın böyük bir hissəsi məhz bu vəznin diktə etdiyi forma və şəkildə yaranmışdır. Əlizadə Əsgərli qeyd edir ki, XX əsrin əvvəllərində yaşlılar əruza, gənclər isə heca vəzninə və sərbəst şeirə üstünlük verirdilər. 30-cu illərdən etibarən hecanın ön plana keçməsi müşahidə olunmuşdur. H.Cavid, Əhməd Cavad, Almas İldırım, Ə.Fövzi, A.Faruq,

Ə.Nazim, S.Vurğun, S.Rüstəm, Rəsul Rza, Mirvarid Dilbazi və digərləri heca vəznində yazmışdırlar [6, s.139-140]. Alim "XX əsr Azərbaycan şeirinin poetikası" adlanan bu kitabında "Ədəbiyyata poetika səviyyəsindən baxışın ədəbi-nəzəri doktrinaya çevrildiyi" [yenə orada, s.3] bir dövrdə poeziyanın növ və janr təkamülü, poetizmlər, ritm, ahəng və intonasiya, vəzn müəyyənliyi kimi məsələlərə toxunur. Hər üç vəzndə, eləcə də vəznlərin vəhdətində yaranmış XX əsr şeirinin əsas nümunələrini təsnifatlaşdıran bu tədqiqatda hecanın bütün şəkillərinə dair bədii faktlar sadalanır. Ümumiyyətlə, XX əsrdə heca vəznində yazan şairlər çoxdur. Lakin bu müəlliflərin hamısının yaradıcılığı vəzn istiqamətində tədqiq olunmamışdır.

## Əsas hissə / Main Part

XX əsr Azərbaycan poeziyasında heca vəzni dedikdə ilk Səməd Vurğun ağla gəlir. Səməd Vurğun yaradıcılığı Azərbaycan ədəbiyyatşünaslığında müxtəlif istiqamətlərdən araşdırılıb. Şairin şeirlərinin vəzn xüsusiyyətləri barədə Cəlal Abdullayev yazmışdır. "Səməd Vurğunun sənət dünyası" adlı monoqrafiyasında şeirin əsas qayda-qanunlarından birinin ahəngdarlıq olduğunu qeyd edir. Poetik ahəngdarlığı Azərbaycan dilində yaranan şeirin başlıca şərti hesab edir. Ahəngi poeziyanın tənzimçisi adlandırır [1, s.182]. Səməd Vurğunun bir ustad kimi bütün poetik vəznlərə hakim olduğunu, poetik xüsusiyyətlərini yaxşı bildiyini, nəzəriyyəsinə hakim olduğunu söyləyir. Dünya şeir sistemlərinin müxtəlif vəznlərindən bəhrələnsə də, "heca vəzninin ən qüdrətli ustadı kimi" ədəbiyyatın yaddaşında qaldığını yazır. Səməd Vurğun şeirinin dinamikası 5 və 16 heca arasında dəyişir. Cəlal Abdullayev müxtəlif heca saylarına görə nümunələr seçir və onları həm də poetexnoloji elementləri (qafiyə, bölgü) əsasında analiz edir.

*Ah gözəl qadın,*
*Gözlərin aydın (5 heca)*
*Doğdu gül üzlü səhər (7 heca)*
*Şair, nə tez qocaldın sən! (8 heca)*
*Dağlara qalxan zəfər səsin (9 heca)*
*Yaz ola dovğa ola yarpızla (10 heca)*
*Demə susdu rübabımın telləri (11 heca)*
*Bir quş idim, ayrı düşdüm budağımdan (12 heca)*
*Yenə yaşıl don geyinmiş çəmənlər gülür (13 heca)*
*İçimdə dalğalardan gurultu qopdu yenə... (14 heca)*
*Özün gəl, ey sevdiciyim, özün çıx meydanıma (15 heca)*
*O bir bahar havasıdır, tez dəyişən halları var (16 heca)*

Bu nümunələr şairin vəznlə işləmə qabiliyyətini, poetik çevikliyini və ustalığını göstərir. Cəlal Abdullayev "Şair, nə tez qocaldın sən" şeirində səkkizhecalı şeirin ənənəvi qəliblərinə gətirilən yenilikləri müşahidə edir, yeni qafiyə sistemi yaratmasını vurğulayır. Bu kimi faktları şairin şeirin poetik şəkillərini istədiyi səmtə əyməyi bacarması ilə səciyyələndirir. Şairin "Marş" adlı şeirinin sanki əruzla hecanın yolayrıcında dayandığı fikrini irəli sürür:

*Gəl cərgə-cərgə, qatar-qatar,*
*Qüvvətin də var, qanın da var.*
*Dağlara qalxan zəfər səsin*
*Qoy səndən qalsın bir yadigar.* [1, s.185]

Burada əruza xas əlamətlərin çaşdırıcı olduğunu, 9 hecalı şeir olub, rübai qafiyəsində yazıldığını bildirir. Səməd Vurğunda az işlənən şeir şəkilləri arasında onhecalı və on iki hecalıları görür. Səməd Vurğun yaradıcılığında əruz vəzninin də yerini və işləkliyini təhlilə cəlb edən alimin

heca vəzni ilə bağlı araşdırmaları bu qədərdir. Səməd Vuğrun vəzninin struktur hadisə kimi geniş-miqyaslı öyrənilməsi vacibdir və poetik düşüncənin sonrakı inkişafını anlamaq əhəmiyyəti daşıyır.

Paşa Əfəndiyevin "Səməd Vurğun və xalq yaradıcılığı" adlı tədqiqatında folklor və şairin poetik dünyası arasında əlaqənin məzmun və formaca necə təzahür etdiyinə diqqət çəkir. Xalq-aşıq şeir şəkillərindən məharətlə istifadə etməsi, özününküləşdirməsi, folklor ənənələri ilə bağlılıq istiqamətləri təhlil olunur.

*Boynunu gəc burma, gəl indən belə,*
*Mən sənə söz qoşum, sən məni dinlə,*
*Vurğunun şeirilə, sənin hüsnünlə*
*Təbiət gələcək cana, bənövşə!*

Belə nümunələr gətirərək göstərir ki, şairin xalq şeiri ilə qurduğu əlaqənin tarixi poetik mahiyyəti var. P.Əfəndiyev 1930-cu illərdə aşıq poeziyasına M.Müşfiq, M.Rahim, O.Sarıvəlli, R.Rza yaradıcılığında maraq göstərildiyini, aşıq şeirinin sovet poeziyasına təsiri forma, şəkil, dil rəngarəngliyində, ifadə vasitələrinin sadələyində, səmimiliyində, poeziyanın xəlqiliyində özünü büruzə verir [5, s.37]. Səməd Vurğunun bayatı və mahnı yaradıcılığı, deyişmə kimi formalara müraciəti, bütövlükdə folklor janrları ilə dinamik ünsiyyəti kitabda geniş araşdırılır.

Sovet poeziyasını araşdıran alimlərimizdən biri Əkbər Ağayevdir. O, 1940-cı illərdə bu istiqamətdə tədqiqata başlamışdır. Əkbər Ağayev "Sənətkarlıq məsələləri" kitabında 1950-ci illəri nəzərdə tutaraq sənətkarlığın ən mühüm yaradıcılıq məsələsi olduğunu qeyd edirdi [4, s.75]. Nə qədər siyasi-ideoloji çərçivələri olsa da, bu fikir alimin Azərbaycan şeirinin qayğısına qalmasından irəli gəlirdi. Sənətkarlıq bədii formanın kamilliyini tələb edir, poetik formaya hakim olmaq şairin vəzifəsidir [4, s.107]. Daha sonra 1961-ci ilin poeziyasına nəzər saldığı məqaləsində poetik əsər-lərin müasir mövzulara artan marağını yüksək dəyərləndirir [3, s.80].

Süleyman Rüstəm poeziyasını araşdıran Atif Zeynallının şairin yaradıcılığında heca vəzni ilə bağlı fikirləri bədii forma və şeir şəkillərinin müxtəlifliyinin təqdirinə söykənir. S.Rüstəm poeziyasında milli şeirimizin şəskli xüsusiyyətlərində dərindən bələdlilik müşahidə edir, çevik və lakonik, çox vaxt ənənəvi şeir formalarına müraciəti dövrün tələbinə uyğun olaraq ideoloji zəmində izah edir. Poetik vəzni texniki və zahiri bir məsələ kimi görmür, şeirin ideya zəmini və fəlsəfi mahiyyəti ilə möhkəm surətdə bağlı olduğunu əsas götürür. S.Rüstəmin ənənəvi şeir formalarını novator prinsiplərlə mənimsədiyini izah edir [10, s.183-185].

Qeyd etməliyik ki, XX əsrin şeiri və onun tədqiqi ənənə və novatorluq məsələlərini gündəmə gətirib. Elə 1920-ci illərdə sərbəst şeir məsələsi ətrafında dönən prosesi analiz edən Şamil Salmanov "Azərbaycan sovet şeirinin ənənə və novatorluq problemi (1920-1932-ci illər)" monoqrafiyası ilə qeyd edilən dövrün bəzi polemik münasibətlərinə yenidən nəzər salır. Həmin dövrdə ənənə və sərbəst şeir ətrafında dönən müzakirələri araşdırır, yanlış vulqar mübaliğələrlə yanaşı, bəzi mühüm fikirləri də sadalayır. Poeziyanın axtarış meyli, yeni yollar və imkanlar ehtiyacı, müasir çağla ayaqlaşmaqla bağlı fikirləri məqbul hesab edir [7, s.123]. Arif Abdullazadə "Novatorluq və üslub" əsərində ədəbi metod, üslub və fərdi ifadə tərzi kimi məsələləri araşdırır, novatorluğu hər şeydən əvvəl sənətkarın öz obraz, ifadə və bədii təsvirlər aləmi, onun ümumi ədəbi prosesdəki xüsusi dəst-xəti hesab edir [2, s.35]. Novatorluğu xalqların çoxəsrlik bədii irsindən təcrid etməyi onu sənətin zahiri əlamətlərində axtarmaqdan irəli gəldiyini düşünür. Şeirin şəkil, qəlib, vəzn, qafiyə kimi xüsusiyyətləri novatorluğun kiçik bir qismini təşkil edir. Novatorluğu ənənədən qətiyyən təcrid etmək olmaz. Ardınca sovet poeziyasını yeni xarakterli şeir, yeni keyfiyyətli lirika, yeni ifadə vasitələri və obrazlar, yeni yaradıcılıq üslubları kimi təqdim edir. S.Rüstəmin, S.Vurğunun, M.Müşfiqin, R.Rzanın, Əli Kərimin yaradıcılığı əsasında poeziyadakı yeni məndəricədən, adı çəkilən ədiblərin yaradıcılığında vəzn hadisələrində baş verən dəyişmələrdən bəhs edir.

Vaqif Yusiflinin "Müasir Azərbaycan poeziyasında ənənə və novatorluq" adlı doktorluq dissertasiyası bu kimi məsələləri gündəmə gətirən mühüm qaynaqdır. "Azərbaycan poeziyasında uzun müddət yaşayan ənənələr olmuşdur ki, bu da onların vərəsəlik qaydası ilə əsrlərdən-əsrlərə gəlib keçməsi və özəl xüsusiyyətlərini saxlaması ilə bağlıdır" [9, s.236]. Ənənələrin bədii forma müstəvisində dəyişikliyə məruz qalmasını qanunauyğun proses kimi izləyən alim qoşma janrının müasir poeziyadakı vəziyyəti ilə bağlı maraqlı mülahizələr irəli sürür. S.Vurğun, S.Rüstəm, M.Rahim, B.Vahabzadə, N.Xəzri, M.Araz, H.Kürdoğlu, M.Günər, M.İsmayıl, Z.Yaqub kimi şairlərin qoşmadakı uğurlarını bu janrın öz bədii imkanlarını tükətməməsi ilə əlaqələndirir. Qoşmada qəzələ nisbətən asudəlik duyulmasını, onun zəngin tematik imkanlara sahib olmasını xüsusi qeyd edir. Lakin XX əsr qoşması ilə ənənəvi qoşmanın artıq eyni olmadığını, müasir qoşmanın yeni təfəkkür tərzindən doğulduğunu bildirir [9, s.242-243]. Qoşma və gəraylı şeir növlərinin inkişafının XVII-XIX əsrlərlə məhdudlaşdırılması ilə razılaşmır. XX əsr şeirində bu janrların uğurlu istifadəsi xalqın milli mentaliteti ilə bağlı amillərlə əlaqəlidir. Hüseyn Arif şeirlərində təkcə xalq üslubunun varlığını deyil, onun yeni imkanlarının və gizli qalan potensialının üzə çıxmasını da bir proses kimi izləyir. "Hüseyn Arif, əgər belə demək mümkünsə, xalq şeiri modellərini həm məzmunca, həm də formaca qoruyub saxlamışsa, B.Vahabzadə, M.Araz, H.Kürdoğlu, M.Yaqub, M.İsmayıl, Z.Yaqub, R.Rövşən kimi şairlər ona fəlsəfi ahəng, məzmun zənginliyi gətirmişlər" [9, s.245]. Qoşma Azərbaycan poeziyasında davamlı və sabit ənənələrin mövcudluğunu təsdiq edir, hətta XXI əsrin əvvəllərində başqa şeir formalarına nisbətdə birinci olması onun nə qədər dayanıqlı poetik forma olduğunu göstərir. V.Yusifli qoşma janrı ilə yanaşı, gəraylı şeir formasının da qət etdiyi məsafələrə nəzər salır. Onun fikrincə, heç bir poetik forma köhnə deyil, formanın köhnəliyi kimi söhbətlər mənasızdır, köhnə havalarda yeni söz deməyin öz gözəlliyi var. XX əsr şeirinin faktlara söykənən təhlili əsasında poeziyanın ana xəttini heca vəznli şeirin təşkil etdiyi qənaətinə gəlir. Heca şeiri bütün formal komponentləri ilə sabitliyi, stabilliyi və ənənəyə sadiqliyi ilə seçilir. Şeir məkanında öz missiyasını davam etdirməsi yalnız poetik istedadların hesabına baş tutur. Heca şeiri xalqın mənəvi dünyası ilə birbaşa bağlıdır. V.Yusifli vəzn hadisələrindən danışarkən heca-sillabik vəzn ifadəsi işlədir, bununla da terminoloji dolaşıqlığı uzaqlaşdırmış olur [9, s.252]. Belə ki, bəzi dərsliklərdə sillabik və heca ifadələri aydınlaşdırılmadan təqdim olunur. Növbəti paraqrafda bu məsələyə münasibət bildirilir.

Vaqif Yusifli "Poeziya və zaman" adlı kitabında ötən əsrin 60-cı illərində şairlərin ədəbiyyatda bir çox şablon və stereotipləri dağıtmaq, formaları, qəlibləri sındırmaq missiyasından bəhs edir. 60-cı illərdə bu missiyanı Rəsul Rzanın başçılığı ilə "altmışıncılar" nəsli tərəfindən gerçəkləşdiyini yazır. Əli Kərim, Fikrət Qoca, İsa İsmayılzadə, Ələkbər Salahzadə, Fikrət Sadıq, Vaqif Səmədoğlu, Camal Yusifzadə kimi şairlərin formada və məzmunda etdiyi yeniliklərə diqqət çəkir, novatorluq məsələsində özündən sonrakı ədəbi nəsillərin taleyində mühüm rol oynadığını vurğulayır. "Yetmişincilər" nəslinin – Çingiz Əlioğlu, Ramiz Rövşən, Vaqif Bayatlı, Eldar Baxış, Vaqif Bəhmənli, Nüsrət Kəsəmənli, Ağamalı Sadiq kimi şairlərin yeni dəst-xət nümayiş etdirməsini, 60-cılar kimi yeknəsək, monoton, bəsit, sxematik mövzulara qarşı öz orijinal mövqelərini qoymasını bu nəslin müstəqil bir istiqamət olması ilə əlaqələndirir. "Səksənincilər" isə ədəbiyyatda polifoznizmi gücləndirmiş,fərdi üslubların kəmiyyət və keyfiyyətcə əmsalını artırımışdırlar. Akif Səməd, Rüstəm Behrudi, Tofiq Qaraqaya, Zahid Sarıtorpaq, Ramiz Qusarçaylı, Əjdər Ol, Adil Mirseyid və s. şairlərin adlarını çəkir. Kitabda "Doxsanıncılar" və "İkiminincilər" nəsilləri başlıqlara çıxarılaraq araşdırılır. Eyni həqiqətə fərqli prizmalardan baxan "Doxsanıncılar" nəslindən Salam Sarvan, Rasim Qaraca, Adil Mirseyid, Həmid Herisçi kimi şairlərin timsalında modernist meyillərin necə formalaşdığına diqqət çəkir, "İkiminincilər" nəslini "sonuncular" sözü ilə birlikdə işlədir: "minillik Azərbaycan şeirinin yaratdığı ən gözəl ənənələrə arxa çevirməyən, amma bu ənənələrə fanatikcəsinə boyun əyməyən, "Sındır qəfəsi, tazə gülüstan tələb eylə", – deyibən köhnəni təzədən qurmaq istəyən, yeninin ilk bünövrə daşlarını ucaldan cavan memarlardır" [8,

s.294]. Aqşin, Şərif Ağayarın, Zahir Əzəmət, Tərlan Əbilovun, Narıngül, Aysel, Cavidan, Qismət və başqa şairlərin əsərlərinə ənənə və yenilik müstəvisində dəyər biçir. Yeri gəldikcə, bu şairlərin yaradıcılığında ənənəvi formaların işləkliyinə diqqət edir. Vaqif Yusifli ədəbiyyatda nəsil anlayışının şərti və nisbi olduğunu qeyd etsə də, onun Azərbaycan poeziyasının inkişaf xəttini bu sxem üzrə izləməsi metodoloji baxımından əhəmiyyətlidir, poetik irsin sistemli təhlili və təsnif edilməsinə xidmət edir. Heca vəzninin bu poetik inkişaf ardıcıllığına davamlılığını öyrənmək kimi mühüm məsələnin tədqiqində də yol xəritəsi kimi istifadə oluna bilər.

## Nəticə / *Conclusion*

Ümumiyyətlə, ənənə və novatorluq məsələsini araşdıran tədqiqatlar XX əsr poeziyasında heca vəzninin mövqeyini öyrənmək baxımından metodoloji istiqamət verə biliblər. Heca vəzninin struktur hadisə kimi hərtərəfli öyrənilməsi, yazılı ədəbiyyatın əsas ölçüsündən birinə çevrilməsi, bu prosesin necə baş verməsi və transformasiyaları (aşıq şeir tərzi istisna olmaqla) hələ də həllini gözləyən məsələlərdən biridir. Bu istiqamətdəki mövcud araşdırmalar mikropoetik səciyyə daşıyır. Ayrı-ayrı şairlərin, ayrı-ayrı bədii faktların, müxtəlif dövrlərin poeziya təmayüllərinin təhlili səviyyəsində gerçəkləşir.

## Ədəbiyyat / *References*

1. Abdullayev Cəlal. Əsərləri. 7 cilddə, II cild. Səməd Vurğunun sənət dünyası. – Bakı: Çaşıoğlu, 2011, 328 s.
2. Abdullazadə Arif. Novatorluq və üslub. – Bakı: Elm, 1976, 73 s.
3. Ağayev Əkbər. Əsrin tərənnümü. – Bakı: Yazıçı, 1980, 232 s.
4. Ağayev Əkbər. Sənətkarlıq məsələləri. – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1962, 167 s.
5. Əfəndiyev Paşa. Səməd Vurğun və xalq yaradıcılığı. – Bakı: Yazıçı, 1992, 120 s.
6. Əsgərli Əlizadə. XX əsr Azərbaycan şeirinin poetikası. – Bakı: Aspoliqraf, 2012, 496 s.
7. Salmanov Şamil. Azərbaycan sovet şeirinin ənənə və novatorluq problemi (1920-1932-ci illər). – Bakı: Elm, 1980, 182 s.
8. Yusifli Vaqif. Poeziya və zaman. – Bakı: Mütərcim, 2012, 380 s.
9. Yusifli Vaqif. Poeziyanın yolları və illəri (1960-2000-ci illər). – Bakı: Mütərcim, 2009, 404 s.
10. Zeynallı Atif. Keçilməmiş yollarla: S.Rüstəmin sovet poeziyasında mövqeyi. – Bakı: Elm, 1970, 203 s.

## Исследование силлабического стиха в поэзии XX века в контексте традиций и новаторства

**Малахат Ахмедова**
Азербайджанский Государственный педагогический университет
E-mail: malahatahmadovav@gmail.com
ORCID: 0009-0000-6273-8279

**Резюме.** В представленной статье рассмотрено отношение филологической мысли в нашей поэзии XX века к позиции силлабического стихотворчества. Привлечено внимание к вопросу отражения в исследованиях сохранённого в нашей поэзии принципа силлабики как постоянной черты. Проводится анализ научно-теоретических результатов об основных особенностях динамики силлабического стиха в современной поэзии XX века как его логическом сопровождении. Рассмотрен опыт филологической мысли в сфере традиций и новаторства.
**Ключевые слова:** силлабический стих, традиции и новаторство, структура, форма, вид